AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

AZƏRBAYCANDA KİÇİK VƏ ORTA BİZNESİN BANK KREDİT SİYASƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

İxtisas: 5301.01 – "Daxili fiskal siyasət və dövlət maliyyəsi"
Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Vəfa Salman qızı Əzizova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2026

Dissertasiya işi Qərbi Kaspi Universitetinin "Maliyyə və mühasibat" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
Mübariz Məmmədhüseyn oğlu Bağırov

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
Elnur Məhəmməd oğlu Sadıqov

iqtisad elmləri üzrə fəlsəfə doktoru
Müseyib Fayaz oğlu Əliyev

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Səkinə Abdurəhim qızı Hacıyeva

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.10 Dissertasiya şurası

Dissertasiya şurasının sədri:

~~iqtisad~~ elmləri doktoru, professor
Yaşar Atakişi oğlu Kəlbiyev

(imza)

Dissertasiya şurasının elmi katibi:

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Suqra İnqilab qızı Hümbətova

(imza)

Elmi seminarın sədri:

iqtisad elmləri doktoru, professor
Nizami Nəcəfqulu oğlu Xudiyev

(imza)

İŞİN ÜMUMİ SƏCİYYƏSİ

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Müasir dövrdə milli iqtisadiyyatın inkişafı çoxsaylı amillərin təsiri altında formalaşır. Həmin amillər iqtisadiyyatın ayrı-ayrı sahələrində çoxsaylı müxtəlif parametrləri şərtləndirirlər ki, nəticədə də iqtisadiyyat dayanıqlı, sabit davamlı xarakter alması təmin edilir.

Dünya təcrübəsi göstərir ki, ölkələrin iqtisadiyyatında əsas makroiqtisadi göstəricilərin formalaşmasında kiçik və orta sahibkarlığın rolu və payı durmadan artır. Bu hər şeydən əvvəl özünü ÜDM-də kiçik müəssisələrin payında, kiçik müəssisələrin məşğulluqdakı payında, eləcə də cəmi müəssisə sayındakı payında göstərir. Bu göstəricilərin səviyyəsinin yüksəlməsi bir tərəfdən kiçik və orta sahibkarlığa dövlət dəstəyinin güclənməsi, bir tərəfdən isə həmin subyektlərdə iqtisadi fəallığın yüksəlməsi nəticəsində baş verir.

Dünya iqtisadiyyatında qloballaşmanın və eləcə də inteqrasiyanın təsiri altında formalaşan bütün ölkələrin iqtisadiyyatında kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi mühüm prioritet kimi seçilmişdir. Çünki digər amillərlə yanaşı bu amil də ölkə iqtisadiyyatında dinamik inkişafın təmin olunmasında mühüm rol oynamaqla yeni iş yerlərinin açılmasını, müasir, dünya standartlarına uyğun idarəetmə üsullarının, yeni texnika və texnologiyalarının tətbiq olunmasını, həm daxili, həm də xarici bazarlar üçün zəruri olan yeni məhsulların istehsalını, idxal və ixrac əməliyyatlarının sərhədlərinin daimi böyüməsini, məşğulluq səviyyəsinin və s. artımını şərtləndirir.

Kiçik və orta biznesin inkişaf etdirilməsi üçün həyata keçirilməli mühüm tədbirlər vardır ki, onların hər biri bu sahənin daha da təkmilləşdirilməsini, sahənin beynəlxalq tələblərə uyğun qurulmasını təmin edirlər. Həmin tədbirlər kiçik və orta biznes subyektlərinin fəaliyyəti ilə əlaqədar hüquqi-normativ bazanın yaradılmasından, bu sahənin düzgün tənzimlənməsi üçün zəruri alətlərdən istifadə edilməsindən, bu sahədə dövlət dəstəyinin müxtəlif alətlər vasitəsi ilə göstərilməsindən, bu sahədə azad rəqabət üçün uyğun şəraitin yaradılmasından, kiçik və orta sahibkarlıq subyektlərinin xarici bazarlara çıxışının asanlaşdırılmasından, onların müxtəlif maliyyə resurslarına əlçatanlığının təmin olunmasından və s. ibarətdir.

Qeyd edilən tədbirlər içərisində xüsusi əhəmiyyət kəsb edən və sahənin sürətlə inkişaf etməsinə eləcə də fəaliyyətin genişlənməsinə təsir edən tədbirlərdən biri də kiçik və orta biznes sahəsində bank kreditləşmə siyasətinin təkmilləşdirilməsidir. Bu istiqamətdə təkmilləşmə bankın, eləcə də sözügedən sahənin inkişaf strategiyasının tərkib hissəsi olmaqla sonda iqtisadi dinamikaya təsir edərək ölkə iqtisadiyyatına öz töhfəsini verir.

Bank kreditləşməsi vasitəsi ilə kiçik və orta biznes subyektlərinin maliyyə resurslarına əlçatanlığının təmin edilməsi məsələsi həmişə dövlətlərin diqqət mərkəzində olmuşdur. Məhz bu sahənin iqtisadiyyat üçün vacibliyi nəzərə alınaraq maliyyə inklüzivliyinin ən mühüm elementi olan kreditə çıxış imkanlarının asanlaşdırılması, genişləndirilməsi bu istiqamətdə müxtəlif tədbirlərin həyata keçirilməsini zəruri edir.

Dünya təcrübəsinə əsaslanaraq demək olar ki, mikro kiçik və orta sahibkarlıq (MKOS) subyektlərinin əsas maliyyələşmə mənbələrindən olan bank kreditlərindən istifadə faizlərinin yüksək olması təminat tələbini zəiflətdiyinə görə bu sahənin inkişaf etdirilməsində əsas məqsədlərdən biri məhz MKOS-ların bank kreditləşdirilməsinin təkmilləşdirilməsindən ibarətdir. Məhz bu istiqamətdə təkmilləşdirmə maliyyə inklüzivliyinin əsas vasitəsi olduğuna görə ölkədə aparılan iqtisadi siyasətin ən prioritet istiqamətlərindən birinə çevrilmişdir.

Kiçik və orta sahibkarlıq subyektlərinin bank kreditləşdirilməsi bir çox parametrlərinə görə yüksək əhəmiyyət daşıyır. Bunlardan ən mühümü isə iqtisadi mühitdə rəqabətin gücləndirilməsindən, həmin subyektlərin, yəni, MKOS-ların yeni mühitə uyğunlaşdırılmasından, onların fəaliyyətində səmərəliliyin artırılmasından və s. ibarətdir.

Hal-hazırda ölkəmizdə həyata keçirilən iqtisadi siyasətdə mühüm istiqamətlərdən biri məhz sahibkarlığın inkişaf etdirilməsindən ibarətdir. Bununla bağlı əsas məsələlər rəsmi sənədlər olan və 06.12.2016-cı ildə qəbul olunmuş Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair "Strateji Yol Xəritəsi"ndə və 02 fevral 2021-ci ildə qəbul olunmuş "Azərbaycan 2030: sosial iqtisadi inkişafa dair Milli Prioritetlər" də və digər sənədlərdə öz əksini tapmışdır. Həmin sənədlərdə öz əksini tapan, tədqiqatımız vasitəsilə araşdırılan problemə aid olan əsas məsələlər ölkəmizdə biznes mühitinin daha da yaxşılaşdırılmasından, sürətləndirilməsindən, genişləndirilməsindən, sahibkarlıq mühitinin

təkmilləşdirilməsindən, bu sahədə şəffaflığın artırılmasından, maliyyə inklüzivliyinin artırılması vasitəsilə səmərəli nəticələrin əldə olunmasından ibarətdir.

Kiçik və orta biznesin inkişaf etdirilməsi, onun iqtisadiyyatın sahə və sektorları üzrə daha da genişləndirilməsi, bu sahədə maliyyə inklüzivliyinin daha da asanlaşdırılması və s. bu kimi problemlərə dair çoxsaylı tədqiqatlara və əsərlərə rast gəlinir. Qeyd edilən istiqamətdə azərbaycanlı alimlər olan Z.Ə.Səmədzadənin, Ə.Nuriyevin, Ə.Ə.Ələkbərovun, A.Ş.Şəkərəliyevin, Z.F.Məmmədovun, N.M.İmanovun, Ü.Əliyevin, Ə.P.Babayevin, M.A.Əhmədovun, M.M.Bağırovun, E.M.Sadıqovun, C.Pürhaninin, V.Novruzovun, K.Manafovun, S.Məmmədovun, A.Babayevin, R.Bəşirovun və başqalarının əsərlərinə rast gəlinir. Qeyd edilən alimlərin tədqiqatlarında biznes mühitinin ümumi xarakteristikasına, onun təşkili prinsiplərinə, sahibkarlıq bazarının idarə edilməsinə, tənzimlənməsinə, onun sığorta, audit və s. problemlərinin həllinə dair məsələlər öz əksini tapmışdır.

Xarici ölkələrdən olan B.İ.Rıbin, T.N.Beloqlazova, O.C.Panova, V.N.Kolesnikov, O.Jukov, O.T.Balabanov, L.N.Krasavina, B.Qeraşenko, L.P.Krolivetskaya kimi rus alimlərinin, həmçinin digər ölkələrdən olan V.N.Alferov, J.Morqan, Y.Haltivanker, J.Leutao, D.Pereira, N.Opzen, E.A.Permik, E.V.Vaşolomidze, D.Sisak, A.Konçalves kimi alimlərin, eləcə də iqtisad elminin klassikləri olan A.Smitin, D.Rikardonun əsərlərində sahibkarlığın inkişafına və eləcə də onların kreditləşdirilməsi məsələlərinin ayrı-ayrı aspektlərinə rast gəlinir.

Tərəfimizdən aparılan araşdırmalar göstərir ki, yuxarıda adları qeyd edilən alimlər tərəfindən tədqiqat mövzumuza uyğun olan bir çox məsələlər araşdırılsa da kiçik və orta biznes sahəsində bank kredit siyasətinin təkmilləşdirilməsi problemə kompleks şəkildə baxılmamışdır. Bu səbəbdən də belə hesab edirik ki, bu məsələnin qeyd olunan formada araşdırılmasına ehtiyac vardır.

Tədqiqatın obyekti və predmeti. Tədqiqatın obyekti olaraq Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyət mühiti və bank kreditləşdirilməsi prosesi seçilmişdir.

Tədqiqatın predmetini – ölkəmizdə kiçik və orta biznes sahəsində mövcud olan mühitin xarakteristikasını, onun inkişaf istiqamətlərini əks etdirən, bu biznes sahəsinin bank kreditləşdirilməsi mexanizminin, eləcə

də onun vəziyyətinin təhlil edilməsində, nəticələrin qiymətləndirilməsində istifadə edilən üsul, qaydalar, metodoloji və praktiki metodların müxtəlif aspektlərinin məcmusu təşkil edir.

Tədqiqatın məqsəd və vəzifələri. Dissertasiya işinin əsas məqsədi respublikamızda kiçik və orta biznes sahəsində bank kredit siyasətinin təkmilləşdirilməsinin əsas istiqamətlərini müəyyənləşdirməkdən ibarətdir. Bu məqsədə çatmaq üçün dissertasiya işində aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- kredit siyasətinin formalaşmasının nəzəri və metodoloji məsələlərinin öyrənilməsi;
- bank kreditləşmə sisteminin əsas parametrlərinin araşdırılması;
- kiçik və orta biznesin kreditləşdirilməsinin dünya təcrübəsinin öyrənilməsi;
- kiçik və orta biznes sahəsində bank kreditləşdirilməsinin müasir vəziyyətinin təhlil olunması və qiymətləndirilməsi;
- kiçik və orta sahibkarlıq subyektlərinin bank kreditləşdirilməsinin dünya təcrübəsinin ölkəmizdə tətbiqi imkanlarının öyrənilməsi;
- kiçik və orta sahibkarlıq subyektlərinin bank kreditləşdirilməsinin təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsi.

Tədqiqatın metodlarının əsasını kiçik və orta biznes sahəsində bank kreditləşdirilməsi problemlərinə həsr olunmuş ədəbiyyatlarda tətbiq olunan müasir analitik vasitə və sistemli yanaşmalar təşkil edir. Tədqiqat işində statistik təhlil, məntiqi ümumiləşdirmə, qruplaşdırma, müqayisəli qiymətləndirmə metodlarından istifadə edilmişdir.

Tədqiqatın nəzəri və metodoloji əsasını – tədqiqatçı alimlərin kiçik və orta biznesin bank kredit siyasətinin təkmilləşdirilməsinə həsr olunmuş tədqiqatları, Azərbaycan Respublikası Prezidentinin imzaladığı fərman və sərəncamlar, Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanun və qərarlar; Mərkəzi Bankın bank kreditləşdirilməsinə dair müəyyən etdiyi normativ sənədlər, qaydalar, normativ – hüquqi aktlar və s. təşkil edir.

Tədqiqatın informasiya bazası – tədqiqat aparılarkən Azərbaycan Mərkəzi Bankının illik hesabatlarından, Dövlət Statistika Komitəsinin məlumatlarından, İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun materiallarından, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin materiallarından, ayrı-ayrı bankların illik hesabat materiallarından

istifadə olunmuşdur.

Müdafiəyə çıxarılan əsas müddəalar:

- kredit siyasətinin nəzəri əsasları və kredit sisteminin əsas parametrləri;
- kiçik və orta biznesin kreditləşdirilməsinin dünya təcrübəsi;
- kiçik və orta biznesin bank kreditləşdirilməsinin və onun fəaliyyətinin hüquqi-normativ bazasının müasir vəziyyətinin təhlili;
- kiçik və orta sahibkarlıq subyektlərinin bank kreditləşdirilməsinin müasir vəziyyətinin təhlili;
- kiçik və orta sahibkarlıq subyektlərinin kreditləşdirilməsinin prioritet istiqamətləri.

Tədqiqatın elmi yeniliyi. Tərəfimizdən aparılan tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- kredit siyasətinin formalaşmasının nəzəri əsasları, onun əsas xüsusiyyətləri, kredit sisteminin əsas parametrləri öyrənilmiş, konseptual əsasları sistemləşdirilmiş, nəticələr çıxarılmış, onlara aid təkliflər verilmişdir;
- kiçik və orta biznesin kreditləşdirilməsinin dünya təcrübəsi öyrənilmiş, ESG standartları, "yaşıl bankçılıq" və FinTex-lə bank əlaqəsi kimi rəqəmsal müsbət meyllərinin ölkəmizdə tətbiqi imkanları müəyyən edilmişdir;
- kiçik və orta biznesin bank kreditləşdirilməsinin hüquqi-normativ bazası araşdırılmış, onun uyğunluq səviyyəsi müəyyən edilmiş, bazanın təkmilləşdirilməsi istiqamətində üç qanunvericilik dəyişikliyi təklif edilmişdir;
- ölkəmizdə kiçik və orta sahibkarlıq subyektlərinin bank kreditləşdirilməsinin müasir vəziyyətinin təhlili aparılmış, çoxsaylı göstəricilərin müqayisəsi vasitəsi ilə prosesin yaxşılaşması istiqamətində təkliflər verilmişdir;
- aparılmış təhlil və tədqiqatlar vasitəsilə ölkəmizdə kiçik və orta biznesin bank kreditləşdirilməsinin prioritet istiqamətləri müəyyən edilmiş, onun daha da təkmilləşdirilməsi üçün təkliflər verilmişdir.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Tədqiqatda aparılan geniş təhlil və müqayisələr əsasında əsaslandırılan nəzəri-metodik müddəalar, irəli sürülən təklif və tövsiyələr ölkəmizdə kiçik və orta biznesin inkişaf etdirilməsi, onun tənzimlənməsi və idarə olunması istiqamətində zəruri olan funksional, məqsədli proqramların, tövsiyələrin, proqnozların

hazırlanmasında geniş istifadə oluna bilər.

Tədqiqatın nəticələri paralel olaraq praktiki əhəmiyyət də daşıyır. Belə ki, nəticələr alim və mütəxəssislərin tədqiqat işlərində, iqtisad yönümlü mütəxəssislərin hazırlanması prosesində, eləcə də tədris prosesində geniş istifadə edilə bilər.

Aprobasiyası və tətbiqi. Dissertasiyanın əsas elmi-nəzəri müddəaları, nəticə və təklifləri Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu jurnallar və konfrans materiallarında dərc olunmuş 8 məqalədə (3-ü xaricdə olmaqla) və 4 tezisdə (1-i xaricdə olmaqla) öz əksini tapmışdır.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Qərbi Kaspi Universiteti.

Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi. Dissertasiya giriş (12271 işarə), 3 fəsil – (I fəsil - 62351 işarə, II fəsil - 95248 işarə, III fəsil - 57022 işarə), nəticə (16202 işarə) və 153 adda istifadə edilmiş ədəbiyyat siyahısında ibarətdir.

Dissertasiyanın ümumi həcmi cədvəllər, şəkillər, istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla 243094 işarədir.

DİSSERTASİYA İŞİNİN MÜNDƏRİCATI

Giriş

I Fəsil. Bankın kredit siyasətinin nəzəri - metodoloji məsələləri

1.1. Kredit siyasətinin formalaşmasının nəzəri əsasları

1.2. Kreditləşmə sisteminin mühüm parametrləri

1.3. Kiçik və orta biznesin kreditləşdirilməsinin dünya təcrübəsi

II Fəsil. Kiçik və orta biznes sahəsində bank kreditləşdirilməsinin müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi

2.1. Kiçik və orta biznes sahəsində bank kreditləşdirilməsinin hüquqi-normativ bazasının müasir vəziyyətinin təhlili

2.2. Azərbaycanda kiçik və orta sahibkarlıq mühitinin müasir vəziyyətinin təhlili

2.3. Azərbaycanda kiçik və orta biznes subyektlərinin kreditləşdirilməsinin müasir vəziyyəti və GZİT təhlili

III Fəsil. Kiçik və orta biznesin kreditləşdirilməsinin prioritet istiqamətləri

3.1. Kiçik və orta biznesin kreditləşdirilməsinin dünya təcrübəsinin Azərbaycanda tətbiqi imkanları

3.2. Kiçik və orta sahibkarlıq subyektlərinin bank kreditləşdirilməsinin təkmilləşdirilməsi istiqamətləri

Nəticə

İstifadə olunmuş ədəbiyyat

İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Bankın kredit siyasətinin nəzəri-metodoloji məsələləri" adlanan I fəslində kredit siyasətinin formalaşmasının nəzəri əsasları, kreditləşmə sisteminin mühüm parametrləri və kiçik və orta biznesin kreditləşdirilməsinin dünya təcrübəsi araşdırılmışdır.

Dünya təcrübəsindən məlumdur ki, banklar mənfəət əldə etmək məqsədilə yaradılan maliyyə təşkilatlarıdır. Bunun üçün onlar çoxsaylı aktiv əməliyyatlar həyata keçirirlər. Aktiv əməliyyatlar içərisində önəmli yer kredit əməliyyatlarına məxsusdur. Kredit əməliyyatları kredit siyasəti vasitəsilə reallaşdırılır.


Dünya Bank praktikasından məlum olduğu kimi kreditin sosial iqtisadi əhəmiyyəti şərh və təhlil edilərkən bir sıra nəzəri istiqamətlər əsas götürülür. Birincisi ondan ibarətdir ki, kredit öz mahiyyəti və xarakterinə görə bütövlükdə sosial-iqtisadi sistemə əsaslı surətdə təsir göstərir. İkincisi kredit mövcud iqtisadi sistemə münasibətdə neytral xarakter daşıyır. Üçüncüsü kredit axınları iqtisadiyyatda zəruri olan investisiyaların fasiləsiz təmin olunmasının ən mühüm elementi olaraq mövcuddur. Dördüncüsü kredit axınları sosial iqtisadi sistemin davamlı və dayanıqlı inkişafını təmin edir. Beşincisi kredit axınları iqtisadiyyatda dinamik inkişafın təmin olunması elementidir.

İqtisadiyyatın bütün sahələrində, eləcə də sektorlarında kredit siyasətinin həyata keçirilməsi mövcud kredit nəzəriyyələrinin əsas müddəalarını özündə əks etdirir. Hal-hazırda ölkələrin iqtisadiyyatında həlledici rola malik olan kiçik və orta sahibkarlığın sürətli, dinamik və ekspansiv inkişafını təmin etmək üçün kredit siyasətinin müddəaları geniş şəkildə tətbiq olunmalıdır.

Kreditləşmə sisteminin ən mühüm xarakteri ondan ibarətdir ki, kreditlər vasitəsi ilə yaradılan hər bir dəyər paralel olaraq həm əmtəəni, həm də pulu əks etdirir. Bu amili nəzərə alaraq banklar tərəfindən iqtisadiyyatın sahələrinə verilən borcları təyinatından asılı olaraq həm kapital, həm də pul borclarına ayırmaq olar. Bu onunla bağlıdır ki, bank tərəfindən borcalan iqtisadi subyektlərə verilən borcların müəyyən bir hissəsi yeni mal-material dəyərlilərinin formalaşdırılması məqsədilə iqtisadi dövriyyəni pul vəsaitləri ilə təmin edir. Borcların digər bir hissəsi isə iqtisadi subyektlərdə dəyərlilərin


bölüşdürülməsinə və istehsal fondlarının artırılmasına yönəldilir.[1]

Aparılan araşdırma vasitəsi ilə belə bir nəticəyə gəlmək olar ki, kreditləşmə sisteminin əsasını təşkil edən bankın kreditləşmə sistemi məzmun etibarilə strategiya və taktikanın məcmusundan ibarətdir. Bu iki parametr kredit prosesinin reallaşma mexanizmi vasitəsilə həyata keçirilir (Şəkil 1.)



Şəkil 1. Məzmun baxımından kreditləşmə sistemi [2]

Bundan başqa kreditləşmə sistemi təşkilati forma baxımından kredit siyasəti ilə kredit texnologiyasının vəhdəti kimi çıxış edir. (Şəkil 2.)



Şəkil 2. Təşkilati forma baxımından kreditləşmə sistemi[3]

---

[1] *Bağırov V.Y. "Azərbaycanda bazar münasibətlərinin formalaşmasında bank sisteminin rolu mövzusunda 08.00.01 – İqtisadi nəzəriyyə ixtisası üzrə iqtisad elmləri namizədi elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, Bakı-2002. 149 s.*

[2] *Əhmədov Munir. "Kredit siyasəti və bazar iqtisadiyyatı şəraitində aqrar bölmənin kreditləşməsinin təkmilləşdirilməsi" mövzusunda 08.00.05 - Xalq təsərrüfatının iqtisadiyyatı və idarə edilməsi (kənd təsərrüfatı) ixtisasında iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. – səh 46*

[3] *Yenə orada*

Dünya təcrübəsi göstərir ki, ayrı-ayrı banklarda kreditləşmə sistemini təşkil edən kredit siyasəti və kreditləşmə texnologiyaları fərqli olurlar. Bir qayda olaraq kreditləşmə sistemi çoxsaylı makroiqtisadi və mikroiqtisadi amillərin təsiri altında formalaşır.

Kreditləşmə sisteminin mahiyyətinə, strukturuna və fəaliyyətinə dair tərəfimizdən aparılan araşdırma və təhlillər əsasında demək olar ki, bu sistem üç mühüm funksiyanı yerinə yetirir: 1) təşkilati funksiya; 2) idarəetmə funksiyası; 3) nəzarət funksiyası. Bu funksiyanın hər birini icra edərək kreditləşmə sistemi kredit prosesini təşkil edir, kredit risklərini və bütövlükdə prosesi idarə edir, eləcə də prosesin düzgün və keyfiyyətlə idarə olunmasına nəzarət edir.

Kiçik və orta biznesin kreditləşdirilməsinin dünya təcrübəsinin öyrənilməsi göstərir ki, bu sahənin inkişafında dövlət dəstəyi, güzəştli kredit mexanizmləri, kredit təminatları, vergi güzəştləri və innovativ maliyyələşdirmə alətləri mühüm rol oynayır. Yaponiya təcrübəsində kiçik və orta biznesin güzəştli və uzunmüddətli kreditlərlə təmin edilməsi, Sinqapurda çevik kreditləşmə sisteminin və onlayn maliyyələşdirmə platformalarının tətbiqi, Koreya Respublikasında isə kredit təminatları, subsidiyalar və innovasiya yönümlü maliyyə dəstəyi mexanizmləri diqqəti cəlb edir. Araşdırılan təcrübələr göstərir ki, dövlət və bank sektoru arasında səmərəli əməkdaşlığın qurulması, sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi və kredit risklərinin azaldılması kiçik və orta biznesin dayanıqlı inkişafının əsas şərtlərindəndir. Bu təcrübələrin Azərbaycan şəraitinə uyğunlaşdırılması sahibkarlıq subyektlərinin kreditləşdirilməsinin təkmilləşdirilməsinə və onların iqtisadi fəallığının artırılmasına imkan yarada bilər.

Dissertasiyanın "Kiçik və orta biznes sahəsində bank kreditləşdirilməsinin müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi" adlanan II fəslində kiçik və orta biznesin kreditləşdirilməsinin hüquqi-normativ bazasının mövcud vəziyyəti, Azərbaycanda sahibkarlıq mühitinin inkişaf xüsusiyyətləri, eləcə də kiçik və orta biznes subyektlərinin bank kreditləşdirilməsinin müasir vəziyyəti təhlil edilmiş və sahənin güclü və zəif tərəfləri, imkanları və təhdidləri GZİT təhlili əsasında qiymətləndirilmişdir.

İqtisadiyyatda aparılan bu və ya digər sahələrə aid olan əməliyyatların reallaşdırılması üçün zəruri olan ən mühüm şərtlərdən biri həmin

əməliyyatlar üzrə hüquqi-normativ bazanın olmasıdır. Hüquqi-normativ baza hər bir əməliyyatın həyata keçirilməsi qaydasını və onun reallaşdırılması normalarını müəyyən edir.

Təhlil edilən hüquqi-normativ sənədin ən mühüm əhəmiyyəti ondan ibarətdir ki, bu sənəd banklar tərəfindən həyata keçirilən kredit əməliyyatları üzrə kredit riskləri, o cümlədən iri kredit riskləri üzrə prudensial normativ və tələbləri müəyyən edir. Həmin normativ və tələblər əsasında banklar ortaya çıxan riskləri idarə edir, onların mənfi təsirini minimallaşdırır və nəticədə maksimum mənfəətə şərait yaradır. Bu isə öz növbəsində bankın müştərisi olan və borcalan qismində çıxış edən kiçik və orta sahibkarlıq subyektlərinin də kreditlərdən maksimum dərəcədə səmərəli istifadə etmələrinə şərait yaradır.

Dünya təcrübəsi göstərir ki, dayanıqlı, davamlı iqtisadi inkişafın təmin edilməsində mühüm drayver rolunu kiçik və orta biznes subyektləri oynayır. Ölkə iqtisadiyyatının ən mühüm iqtisadi göstəricilərinin formalaşmasında kiçik və orta sahibkarlıq subyektlərinin rolu artır. Həmin göstəricilərə ümumi daxili məhsulun həcmi, məşğulluğun səviyyəsi, yeni iş yerlərinin sayı, onların hesabına vergi daxilolmaları və s. aiddir. Bu göstəricilərin formalaşmasında kiçik və orta biznes (KOB) subyektlərinin rolu artaraq onlar ümumi iqtisadi sistemin bazasının yaradılmasını yüksək səviyyədə təmin edirlər.

Araşdırmalar göstərir ki, mikro, kiçik və orta (MKOS) sahibkarlıq subyektləri bütün ölkələrdə iqtisadi dinamikanın təmin olunması vasitəsi ilə inkişafı sürətləndirir, məşğulluq səviyyəsini yüksəldir, innovasiyaların tətbiq olunmasına geniş imkanlar yaradır.[4]

Beynəlxalq səviyyəli mənbələrə əsaslanaraq demək olar ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının məlumatları göstərir ki, bu təşkilata üzv olan ölkələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 99%-ni MKOS-lar təşkil edir ki, onlar məşğulluğun 60%-ni, Ümumi Daxili Məhsulun isə 50%-60%-ni təmin edirlər. [5]

Hal-hazırda respublikamızda mövcud olan qayda və tələblərə uyğun

---

[4] *Alferov V.N., Shakhov O.F., Reznik E.A., Vashalomidze E.V., Yuryeva A.A. "Economic security of entrepreneurship: Specifics of management in the context of financial instability" International journal of Recent Technology and Engineering. 8 (3) 2021. P 1396-1401.*

[5] *Keskin H., Şentürk C., Sungur O. The Importance of SMEs in Developing Economies. Second International Symposium on Sustainable Development, June 8-9. 2010, Sarajevo.*

olaraq, mikro, kiçik və orta sahibkarlıq subyektləri ilə bağlı formalaşan spesifik bir mühit mövcuddur. Belə ki, 21 dekabr 2018-ci il tarixə qədər mövcud olan meyarlara görə ölkəmizdə mikro səviyyəli sahibkarlıq strukturları mövcud olmamış, yalnız kiçik, orta və iri sahibkarlıq subyektləri fəaliyyət göstərmişdir. 21 dekabr 2018-ci il tarixində Azərbaycan Respublikası Nazirlər Kabinetinin qəbul etdiyi 556 nömrəli qərarına əsasən yeni təsnifatlaşma meyarları qəbul olunmuş və sahibkarlıq strukturlarının dörd forması qəbul olunmuşdur. (cədvəl 1)

Cədvəl 1. Azərbaycan Respublikasında mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin təsnifatlaşma meyarları

	Meyarlara görə sahibkarlıq subyektlərinin forması	21 dekabr 2018-ci il tarixə qədər		21 dekabr 2018-ci il tarixdən sonra	
		işçilərin orta sayı (nəfərlə)	illik gəlir (manatla)	işçilərin orta sayı (nəfərlə)	illik gəlir (manatla)
1	Mikro sahibkarlıq müəssisələri	-	-	1-10 nəfərədək	200000 manatdan aşağı
2	Kiçik sahibkarlıq müəssisələri	25 nəfərədək	200000 manatadək	11-50 nəfərədək	200000 manatdan yuxarı, 3000000 manatdan aşağı
3	Orta sahibkarlıq müəssisələri	25-125 nəfərədək	200000 manatdan 1250000 manatadək	51-250 nəfərədək	3000000 manatdan yuxarı – 30000000 manatdan aşağı
4	İri sahibkarlıq müəssisələri	125 nəfər və ondan yuxarı	1250000 manat və ondan yuxarı	251-dən yuxarı	30000000 manatdan yuxarı

Mənbə: AR Nazirlər Kabinetinin 21 dekabr 2018-ci il tarixli 556 nömrəli qərarı əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Tədqiqatın məqsəd və vəzifələrinə uyğun olaraq təhlili aparılmış əsas göstəricilərdən biri 2020-2024-cü illər ərzində fəaliyyətdə olan mikro, kiçik, orta sahibkarlıq müəssisələrinin say dinamikasıdır. (Cədvəl 2).

Belə ki, onların ümumi sayı əvvəlki ilə nəzərən 2020-ci ildə 8,1%, 2021-ci ildə 5,99% və ya 20109 ədəd, 2022-ci ildə 6,2% və ya 21936 ədəd, 2023-cü ildə 2,03% və ya 7656 ədəd, 2024-cü ildə isə 1,7% və ya 6431 ədəd artmışdır.

Cədvəl 2. 2020-2024-cü illərdə fəaliyyətdə olan mikro, kiçik və orta

sahibkarlıq müəssisələrinin say dinamikası (ədədlə)

№	Müəssisə forması	2020		2021		2022		2023		2024	
		Müəssisə	Dəyişmə (+;-) %	Müəssisə	Dəyişmə (+;-) %	Müəssisə	Dəyişmə (+;-) %	Müəssisə	Dəyişmə (+;-) %	Müəssisə	Dəyişmə (+;-) %
1	Mikro	327400	+5.1	346171	+5.7	366944	+6.0	374269	+2.0	380316	+1.62
2	Kiçik	5746	+11.3	6556	+14.1	7760	+18.4	7926	+2.1	8029	+1.3
3	Orta	2651	+7.9	2879	+8.6	3138	+9.0	3503	+11.63	3584	+2.31
	Cəmi	335797	+8.1	355906	+5.99	377842	+6.2	385698	+2.03	391929	+1.7

Mənbə: AR İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun materialları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Məlum olduğu kimi sahibkarlıq subyektlərinin innovasiyaları, iqtisadi artımı, dinamikanın və digər müsbət meylləri dəstəkləmək fəaliyyəti bir sıra vacib prinsiplər əsasında həyata keçirilir. Bu prinsiplər sahibkarlıq subyektlərinin fəaliyyətə başlaması ilə, onların fəaliyyətinin idarə olunması, tənzimlənməsi, maliyyə resurslarına çıxışın təmin olunması ilə, eləcə də fəaliyyətin dayanıqlığının və davamlığının təmin olunması ilə bağlıdır. Həmin prinsiplərə aşağıdakılar aiddir: məqsədli əlçatanlıq prinsipi; risklərin bölüşdürülməsi və azaldılması prinsipi; fiskal tədbirlər vasitəsi ilə həvəsləndirmə prinsipi; davamlı maliyyələşdirmə prinsipi; iqtisadi uyğunlaşdırma və təsir prinsipi; şaxələndirmə və inklüzivlik prinsipi; inteqrasiya edilmiş dəstək sistemlərinin prinsipi; şəffaflıq və hesabatlıq prinsipi; adaptiv təkamül prinsipi.

Tədqiqatın məqsəd və vəzifələrinə uyğun olaraq təhlili aparılmalı göstəricilərdən biri ölkəmizdə fəaliyyətdə olan sahibkarlıq subyektlərinin maliyyələşmə mexanizmidir. (Cədvəl 3)**.**

Cədvəl 3. 2018-2024-cü illərdə fəaliyyətdə olan sahibkarlıq subyektlərinin maliyyələşmə mexanizmi

№	Parametrlər	Güzəştli kredit	Avadanlıq krediti	Zəmanət və faiz subsidiyası mexanizmi
1	Kredit illik faizinin səviyyəsi	5%-dən aşağı	9%-dən aşağı	15%-dək
2	Kreditin məbləği	5000-10 mln manat	5000-3 mln manat	5 mln manatdan yuxarı
3	Kreditin müddəti	10 ildən çox	5 ildən çox	7 ildən çox
4	Kreditin güzəşt müddəti	Kredit müddətinin yarısından çox	1 ildən çox	3 ildən çox

Qeyd: *Zəmanət və faiz subsidiya mexanizmi işğaldan azad olmuş ərazilərdə həyata keçiriləcək layihələrin kreditləşdirilməsi üçün nəzərdə tutulmuşdur.*
Mənbə: Cədvəl İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun hesabat məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl göstəricilərindən aydın olur ki, ölkəmizdə sahibkarlıq subyektlərinin sürətli və geniş inkişafına dəstək olmaq üçün onlara münasibətdə Sahibkarlığın İnkişafı Fondu tərəfindən həyata keçirilən maliyyə mexanizmi üç əsas istiqaməti əhatə edir. Bunlara güzəştli kreditlər, avadanlıq kreditləri və eləcə də zəmanət və faiz subsidiyası mexanizmləri aiddir. Göründüyü kimi hər üç maliyyə mexanizminin parametrləri eyni, səviyyələri isə müxtəlifdir. Parametrlər kredit faizinin səviyyəsindən, kreditin məbləğindən, kreditin müddətindən və kreditin güzəşt müddətindən ibarətdir.

Tərəfimizdən aparılan araşdırmalar göstərir ki, ölkəmizdə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 2020-2024-cü illər ərzində verilən güzəştli kreditlər iqtisadiyyatın aşağıdakı istiqamətlərini əhatə etmişdir. (Cədvəl 4)

Cədvəl 4-dən görünür ki, 2020–2024-cü illərdə iqtisadiyyatın sahələrinə və sahibkarlıq subyektlərinə yönəldilən güzəştli kreditlərin həcmində artım dinamikası müşahidə olunmuşdur.

Cədvəl 4.

2020-2024-cü illər ərzində İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən verilən güzəştli kreditlərin iqtisadiyyatın sahələri üzrə bölgüsü (milyon manatla)

№	İqtisadiyyatın sahələri	2020		2021		2022		2023		2024	
		məbləğ	xüsusi çəki %	məbləğ	xüsusi çəki %	məbləğ	xüsusi çəki %	məbləğ	xüsusi çəki %	məbləğ	xüsusi çəki %
1	Kənd təsərrüfatı məhsulları istehsalı	57.86	45.6	59.5	45.5	66.2	45.37	90.0	46.4	140.3	53.2
2	Sənaye məhsulları istehsalı və emalı	47.08	37.1	48.38	37.04	54.77	37.55	71.0	36.78	84.5	32.1
3	Kənd təsərrüfatı məhsullarının emalı	8.2	6.5	8.46	6.47	9.3	6.37	12.3	6.3	14.7	5.6
4	Turizmin inkişafı	7.2	5.7	7.51	5.75	8.2	5.62	10.7	5.52	12.9	4.9
5	Balıqçılıq və akvakultura sahəsinin inkişafı	5.71	4.5	5.89	4.5	6.5	4.45	8.8	4.5	9.6	3.64
6	Xidmət sahələrinin inkişafı	0.8	0.6	0.86	0.6	0.93	0.64	1.0	0.5	1.5	0.57
	Cəmi	126.9	100	130.6	100	145.9	100	193.8	100	263.5	100

Mənbə: AR İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Tədqiqatın məqsəd və vəzifələrinə uyğun olaraq təhlili aparılmalı mühüm göstəricilərdən biri də 2020-2024-cü illər ərzində ölkəmizdə Sahibkarlığın İnkişafı Fondu tərəfindən verilmiş güzəştli kreditlərin sahibkarlıq subyektlərinin təsnifatı üzrə bölgüsünün dinamikasıdır. (Cədvəl 5).

Cədvəl 5-in təhlili göstərir ki, 2024-cü ildə sahibkarlıq subyektlərinə verilən kreditlərin 90,8%-i MKOS-ların payına düşmüşdür. Bu kreditlərin daxili strukturunda mikro müəssisələrin xüsusi çəkisi 72,36% ((65,7 : 90,8) x 100), kiçik müəssisələrin payı 18,61% ((16,9 : 90,8) x 100), orta müəssisələrin payı isə 9,03% ((8,2 : 90,8) x 100) təşkil etmişdir.

Cədvəl 5.

2020-2024-cü illər ərzində İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən verilmiş kreditlərin sahibkarlıq subyektlərinin ölçüləri üzrə bölgüsünün dinamikası (%-lə)

№	İqtisadiyyatın ölçüləri	2020		2021		2022		2023		2024	
		xüsusi çəki	dəyişmə (+;-) %f.b.	xüsusi çəki	dəyişmə (+;-) %f.b.	xüsusi çəki	dəyişmə (+;-) %f.b.	xüsusi çəki	dəyişmə (+;-) %f.b.	xüsusi çəki	dəyişmə (+;-) %f.b.
1	Mikro müəssisələr	12.2	+7.4	48.8	+300	63.6	+30	64.8	+1.9	65.7	+1.4
2	Kiçik müəssisələr	15.5	+8.6	19.3	+24.5	17.4	-10.1	16.9	-3.5	16.9	+0.5
3	Orta müəssisələr	56.5	+14.5	20.0	-64.6	17.3	-13.5	9.4	-45.7	8.2	-12.8
	Cəmi (1+2+3)	84.2	+10.2	88.1	+4.6	98.3	+11.6	91.1	-7.4	90.8	-0.4
4	İri müəssisələr	15.8	+8.5	11.9	-24.7	1.7	-85.7	8.9	+423.5	9.2	+3.4
	Yekunu	100		100		100		100		100	

Mənbə: AR İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.


Tədqiqatın məqsəd və vəzifələrinə uyğun olaraq təhlili zəruri olan göstəricilərdən biri də 01.01.2020-ci il tarixindən 01.01.2025-ci il tarixə olan dövr ərzində fəaliyyətdə olan sahibkarlıq subyektlərinin ayrı-ayrı növləri üzrə kredit qoyuluşunun dinamikasıdır. (Cədvəl 6)

Cədvəl 6-dan göründüyü kimi, 2020-2021-ci illərdə pandemiyanın təsiri ilə sahibkarlıq subyektlərinə verilən məcmu kreditlərin həcmində azalma, sonrakı illərdə isə artım müşahidə olunmuşdur. Belə ki, kredit qoyuluşları 2020-ci ilin əvvəlindəki 9031,6 mln manatdan 2025-ci ilin əvvəlində 14787,2 mln manata yüksələrək 63,7% artmışdır. Kreditlərin strukturunda iri sahibkarlıq subyektləri üstünlük təşkil etsə də, mikro, kiçik və orta sahibkarlığın payı illər üzrə dəyişmişdir. Ümumilikdə, kredit qoyuluşlarının artması sahibkarlıq subyektlərinin maliyyələşdirilməsinin genişləndiyini, kreditlərin strukturundakı dəyişikliklər isə müxtəlif sahibkarlıq qruplarının maliyyə resurslarına çıxış imkanlarının fərqləndiyini göstərir.

Cədvəl 6. 2020-2025-ci illər ərzində fəaliyyətdə olan mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə kredit qoyuluşunun dinamikası

№	Subyektlərin növləri / İllər	mikro		kiçik		orta		iri		Cəmi sahibkarlıq subyektləri üzrə
		məbləğ mln man	cəmdə payı %	məbləğ mln man	cəmdə payı %	məbləğ mln man	cəmdə payı %	məbləğ mln man	cəmdə payı %	
1	01.01.2020	1808.7	20.03	1002.7	11.1	1396.6	15.5	4823.6	53.37	9031.6
	dəyişmə (+;-)%	-9.6		-7.6		-3.4		-11.4		-9.5
	dəyişmə (+;-) mln man	-192.07		82.47		-49.16		-620.64		-944.34
2	01.01.2021	1896.9	22.37	1097.6	12.9	1493.9	17.62	3989.9	47.11	8478.3
	dəyişmə (+;-)%	+4.9		+9.5		+7.0		-17.3		-6.13
	dəyişmə (+;-) mln man	+88.2		+94.9		+97.3		-833.7		-553.3
3	01.01.2022	1957.74	20.1	1168.80	12.0	1548.66	15.9	5064.8	52.0	9740.0
	dəyişmə (+;-)%	+3.2		+6.5		+3.67		+26.9		+14.9
	dəyişmə (+;-) mln man	+60.84		+71.2		+54.76		+1074.9		+1261.7
4	01.01.2023	2225.3	20.5	1324.33	12.2	1747.67	16.1	5557.8	51.2	10855.1
	dəyişmə (+;-)%	+13.7		+13.31		+12.8		+9.7		+11.45
	dəyişmə (+;-) mln man	+267.56		+155.5		+199.01		+493.0		+1115.1
5	01.01.2024	2629.9	20.8	1585.5	12.6	2149.7	17.0	6251.7	49.6	12616.8
	dəyişmə (+;-)%	+18.2		+19.7		+23.0		+12.5		+16.23
	dəyişmə (+;-) mln man	+404.6		+261.2		+402.03		+693.9		+1761.7
6	01.01.2025	3107.3	21.0	1548.6	10.5	1834.0	12.4	8297.3	56.1	14787.2
	dəyişmə (+;-)%	+18.15		-2.33		-14.7		+32.7		+17.2
	dəyişmə (+;-) mln man	+477.4		-36.9		-315.7		+2045.6		+2170.4

Tədqiqatın məqsəd və vəzifələrinə uyğun olaraq təhlili zəruri olan mühüm göstəricilərdən biri də banklar tərəfindən 2020-2024-cü illər ərzində verilmiş kreditlərin orta faiz dərəcələrinin dinamikasıdır. (Qrafik)



Qrafik. 2020-2025-ci illər ərzində kreditlər üzrə orta faiz dərəcəsi

Mənbə: AR Mərkəzi Bankının Statistik Bülleteninin (yanvar 2025 №01.298) məlumatlar əsasında müəllif tərəfindən hazırlanmışdır.

Qrafikdən göründüyü kimi ölkəmizin kredit bazarında banklar tərəfindən milli valyutada verilən kreditlərin orta faiz dərəcəsi son beş il ərzində orta hesabla dəyişməyərək 15% səviyyəsində olmuşdur. Bu isə kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin inkişaf etdirilməsi üçün əlverişli deyildir. Bu faiz dərəcəsinin yüksək olması kiçik və orta sahibkarlığın inkişafına mane olan mühüm amillərdən biri kimi çıxış edir.

Tərəfimizdən aparılan təhlil və araşdırmalar göstərir ki, ölkəmizdə kiçik və orta sahibkarlığın, biznesin bank kreditləşdirilməsində mühüm amillərdən biri olan, dövlət tərəfindən həyata keçirilən güzəştli kreditləşmənin də səviyyəsi yüksək deyildir. Belə ki, bu göstəricinin səviyyəsi təhlil edilən illər ərzində aşağıdakı kimi olmuşdur. (cədvəl 7)

Cədvəl 7. 2020-2024-cü illərdə kiçik və orta biznes subyektlərinin kreditləşməsi göstəricilərinin dinamikasının müqayisəsi

	İllər / Göstəricilər	2020	2021	2022	2023	2024
1	Sahibkarlıq subyektlərinə verilən kreditlərin cəmi, mln manatla	8478.3	9740.0	10855.1	12616.8	14787.2
2	Sahibkarlıq subyektlərinə verilmiş güzəştli kreditlərin cəmi, mln manatla	126.9	130.6	145.9	193.8	263.5
3	Güzəştli kreditlərin cəmi kreditlərdə payı, %-lə	1.5	1.34	1.34	1.54	1.78

Mənbə: AR Mərkəzi Bankın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl göstəricilərindən göründüyü kimi təhlili aparılan göstəricinin, yəni sahibkarlıq subyektlərinə verilən güzəştli kreditlərin xüsusi çəkisi bu subyektlərə verilən bank kreditlərinin cəmində 2020-ci ildə 1,5%, 2021-ci ildə 1,34%, 2022-ci ildə 1,34%, 2023-cü ildə 1,54%, 2024-cü ildə isə 1,78% təşkil etmişdir.

Bunlarla yanaşı qeyd etmək lazımdır ki, Avropa Yenidənqurma və İnkişaf Bankının, eləcə də İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondunun məlumatlarına əsaslanaraq deyə bilərik ki, indiyə kimi ölkədə güzəştli kredit mexanizmlərindən istifadə edən sahibkarların sayı 52 mindən çoxdur. Onlara verilən cəmi güzəştli kreditlər 3,3 milyard manat həcmindədir. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin yaratdığı əlavə dəyər ölkə iqtisadiyyatında yaradılan dəyərin 15%-ni və yaradılan iş yerlərinin 50%-ni təmin edir. Bu göstəricilər isə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (İƏİT) üzv olan ölkələr üzrə orta göstəricidən xeyli aşağıdır.

Apardığımız təhlillər göstərir ki, hazırda ölkəmizdə mikro, kiçik və orta sahibkarlıq daha çox ticarət, nəqliyyat, mehmanxana və restoran biznesi kimi sahələrdə geniş yayılıb. Bu sahələrdə isə spesifik olaraq əlavə dəyər aşağı səviyyədədir. Bu baxımdan perspektivdə iqtisadiyyatın innovasiyalara əsaslanan digər sahələrində MKOS-ların geniş inkişaf tapmasına uyğun şərait yaradılmalıdır.

Dissertasiyanın **"Kiçik və orta biznesin kreditləşdirilməsinin prioritet istiqamətləri"** adlanan III fəslində dünya təcrübəsinin Azərbaycanda tətbiqi imkanları araşdırılmış, kiçik və orta sahibkarlıq subyektlərinin bank kreditləşdirilməsinin təkmilləşdirilməsi istiqamətləri və bu sahədə mövcud imkanların genişləndirilməsinə dair təkliflər irəli sürülmüşdür.

Yaponiya, Sinqapur və Cənubi Koreyanın təcrübəsi əsasında Azərbaycanda KOB-ların kreditləşdirilməsinin təkmilləşdirilməsi imkanları araşdırılmışdır. Yaponiya təcrübəsinə əsasən banklarla sahibkarlar arasında uzunmüddətli əlaqələrin qurulması, regional maliyyə xidmətlərinin genişləndirilməsi, kredit zəmanətləri və güzəştli kreditlərin tətbiqi; Sinqapur təcrübəsinə uyğun olaraq maliyyə savadlılığının artırılması, rəqəmsal kreditləşmə və banklarla fintech şirkətləri arasında əməkdaşlığın gücləndirilməsi, eləcə də rəqəmsal platformalar və açıq bankçılıq alətlərinin tətbiqi istiqamətləri elmi cəhətdən əsaslandırılmışdır; Cənubi Koreya təcrübəsi əsasında isə ixtisaslaşmış kredit zəmanəti qurumlarının yaradılması, aşağı faizli kreditlərin, startap maliyyələşməsinin və innovasiya qrantlarının tətbiqi təklif olunur. Bu tədbirlərin KOB-ların maliyyə resurslarına çıxışını yaxşılaşdıracağı və sektorun dayanıqlı inkişafına töhfə verəcəyi əsaslandırılmışdır.

Kreditin verilməsi proseslərinin sadələşdirilməsi. Bunun üçün kredit müraciəti proseslərinin sadələşdirilməsi, bürokratik əngəllərin azaldılması və KOS-ların kreditə çıxışının asanlaşdırılmasını həyata keçirmək mümkündür. Sadələşdirmə prosesinin həyata keçirilməsi kreditlərin verilməsini sadələşdirməklə yanaşı eyni zamanda KOS-lar üçün kreditlərin cəlbediciliyini də yüksəldəcəkdir.

Kreditin qiymətləndirilməsi proseslərinin təkmilləşdirilməsi. Qabaqcıl analitika və maşın öyrənmə modellərinin tətbiqi yolu ilə kredit qiymətləndirmə proseslərinin təkmilləşdirilməsi biznesin kredit qabiliyyətinin qiymətləndirilməsində əhəmiyyətli dəyişikliklərə yol aça bilər. Ənənəvi kredit qiymətləndirmə üsulları çox vaxt tarixi maliyyə məlumatlarına əsaslanır ki, bu da biznesin cari maliyyə sağlamlığını və ya gələcək potensialını tam əks etdirməyə bilər. Maşın öyrənməsi vasitəsilə bizneslər daha geniş və daha dinamik məlumat toplusundan istifadə edə bilər ki, bu da kreditin daha dəqiq və səmərəli qiymətləndirilməsi prosesinə gətirib çıxarır.

Kredit məhsullarının biznes ehtiyaclarına uyğunlaşdırılması. Biznesin müxtəlif ehtiyaclarını ödəmək üçün maliyyə məhsullarının uyğunlaşdırılması biznes icması daxilində böyümə və sabitliyi gücləndirmək üçün vacibdir. Əsas yanaşmalardan biri müxtəlif bizneslərin unikal tələblərinə uyğunlaşa bilən çevik şərtlərlə kredit məhsullarının dizayn edilməsidir. Çevik kredit dizaynının ən mühüm aspektlərindən biri biznesin maliyyə ilə bağlı axtardığı xüsusi məqsədlərə cavab vermək qabiliyyətidir. Məsələn, dövriyyə kapitalına ehtiyacı olan müəssisələr tez-tez, ideal halda bir neçə ay ərzində qaytarıla bilən qısamüddətli kreditlər tələb edirlər.

Qanunvericilik bazasının təkmilləşdirilməsi. Kiçik və orta sahibkarlıq subyektlərinin bank kreditləşdirilməsinin təkmilləşdirilməsi istiqamətində hüquqi-normativ bazanın təkmilləşdirilməsi mühüm əhəmiyyət daşıyır. Aparılan təhlillər göstərir ki, mövcud qanunvericilikdə KOB-ların kredit tarixçəsinin formalaşdırılması sahəsində bir sıra boşluqlar mövcuddur. Bu boşluqların aradan qaldırılması üçün "Kredit büroları haqqında" Qanuna, "Daşınar əmlakın yüklülüyü haqqında" Qanuna, "Sahibkarlıq fəaliyyəti haqqında" Qanuna dəyişikliklərin edilməsi təklif olunur.

Daha güclü bank-sahibkar münasibətlərinin təşviqi. Biznes müştərilərinə xüsusi əlaqələr menecerlərinin təyin edilməsi daha güclü bank-biznes əlaqələrini inkişaf etdirmək üçün səmərəli strategiyadır. Biznesləri xüsusi hesab meneceri ilə təmin etməklə, banklar hər bir biznesin xüsusi ehtiyaclarına və məqsədlərinə uyğunlaşdırılmış və fərdiləşdirilmiş xidmət təklif edə bilərlər.

NƏTİCƏ

1. Araşdırmalar göstərir ki, bankın kredit siyasəti müəyyən ölçülər çərçivəsində reallaşır. Deyilən çərçivənin bir sıra real amillərdən asılı olan sərhədləri vardır. Bu sərhədlər ölkədə mövcud olan qanunların, qaydaların, normativlərin tətbiqi vasitəsilə ortaya çıxır.

2. Bankın əsas məqsədinə xidmət edən kredit siyasətinin reallaşmasına siyasi amillər, iqtisadi amillər, hüquqi amillər, sosial amillər təsir edir. Qeyd edilən amillər kredit siyasətinin qarşısında duran məqsədlərin icra olunmasına xidmət etməklə bu kredit prosesinin formalaşmasını şərtləndirir. Bu amillərin hər birindən nə dərəcədə, yüksək səviyyədə istifadə olunması sonda kredit siyasətinin nəticələrinin səviyyəsini əks etdirmiş olur.

3. Bankın kredit siyasətini səmərəli formada həyata keçirmək üçün bank əvvəlcə özünün kapital bazasını, sonra isə kredit portfelini optimal şəkildə formalaşdırmalı, passiv və aktivlərini müddət və məbləğ etibarilə uyğunlaşdırmalı, bu istiqamətdə bütün fəaliyyətini sistemli şəkildə təşkil etməli, zəruri hallarda manevr etməyi bacarmalıdır. Real vəziyyətlə əlaqədar olaraq bank manevrlər edərək zəruri qərarlar verə bilir ki, bu da nəticədə kredit siyasətini uğurla reallaşdırmaq üçün kredit mexanizminin qabaqcıl standartlarını tətbiq etməyə imkan verir.

4. Tərəfimizdən aparılan təhlil və araşdırmalar vasitəsi ilə əldə etdiyimiz nəticələrdən biri ondan ibarətdir ki, kommersiya bankının kreditləşmə sistemi kredit siyasətinin və kredit texnologiyalarının qarşılıqlı surətdə mövcud olan sistemlərinin məcmusundan ibarətdir. Bu elementlərin mövcud olması banklar və onun kontragentləri arasında olan kredit münasibətlərinin qurulmasında vacib olan taktika və strategiyanın istiqamətlərini müəyyən edir.

5. Banklarda kreditləşmə sisteminin formalaşması və ona təsir edən amilləri təhlil edərək kredit siyasətinin aşağıdakı elementlərini müəyyən etmək olar: kredit əməliyyatları üzrə strateji məqsədlər; kredit əməliyyatlarının vəzifələri; kreditlərin forma və növləri; kreditləşmənin prinsipləri; kredit məhdudiyyətləri; kreditin ekspansiyası; uyğun bazarların müəyyən edilməsi; kreditləşmənin təşkili; kreditləşməyə nəzarət; kreditləşmə üzrə sənəd dövriyyəsinin

qaydaları; kreditləşmə üzrə faiz siyasəti; kreditləşmə qərarlarının qəbulu üzrə səlahiyyət bölgüsü; kredit portfelinin qiymətləndirilməsi; kreditləşmə üzrə normalara riayət olunması və s.

6. Aparılan araşdırmalar göstərir ki, kreditləşdirmə sistemi açıq sistem olduğuna görə onun elementləri təkcə bu sistemin elementləri ilə deyil, hətta digər sistemlərin elementləri ilə qarşılıqlı əlaqədə fəaliyyətdə olurlar. Həmin sistemlərə hesablaşma kassa xidmətini, passiv əməliyyatlar sistemini, personalın idarə edilməsi sistemini, təhlükəsizlik sistemini və s. aid etmək olar. Kreditləşmə sisteminin formalaşmasının mühüm parametrlərindən, elementlərindən biri də bankın fəaliyyəti ilə bağlı olan spesifik xüsusiyyətləridir. Bunlara hər bir bankın əsas göstəricilər üzrə ölçüləri, onun bazarda yeri, reytinqi, imici, kredit və investisiya portfelinin ölçüləri, səhmdarların xüsusiyyətləri, müştəri bazası, personalın peşəkarlıq səviyyəsi və s. aid edilir. Məhz bu əlamətlərin hər biri kreditləşmə sisteminin formalaşmasına spesifik olaraq təsir edirlər.

7. Kiçik və orta sahibkarlıq subyektlərinin bank kreditləşdirilməsinin təkmilləşdirilməsi istiqamətində hüquqi-normativ bazanın təkmilləşdirilməsi mühüm əhəmiyyət daşıyır. Aparılan təhlillər göstərir ki, mövcud qanunvericilikdə KOB-ların kredit tarixçəsinin formalaşdırılması sahəsində bir sıra boşluqlar mövcuddur. Bu boşluqların aradan qaldırılması üçün qanunvericilik dəyişikliklərinin edilməsi təklif olunur.

8. Qloballaşmanın və daha çox inteqrasiyanın təsiri altında formalaşan ölkələrin iqtisadiyyatları qarşısında duran ən mühüm vəzifələrdən biri məhz davamlı olaraq dinamik inkişafın təmin edilməsindən ibarətdir. Dünya ölkələrində bu məqsədin yerinə yetirilməsi üçün çoxsaylı amillərin təsirindən istifadə edilir. Beynəlxalq aləmdə qabaqcıl ölkələrin demək olar ki, əksəriyyətində belə mühüm amillərdən biri kimi kiçik və orta biznesin sürətli inkişaf etdirilməsi qəbul edilmişdir.

9. Dünyanın bir sıra inkişaf etmiş ölkələrində iqtisadi inkişafın drayveri rolunda kiçik və orta biznes subyektləri (KOB) çıxış edir. KOB-lar bu ölkələrdə ÜDM-in formalaşmasında, məşğulluğun təmin edilməsində, yeni iş yerlərinin yaradılmasında, vergi daxilolmalarının formalaşmasında böyük rol oynamaqla ümumi iqtisadi sistemin

bazasını formalaşdırmış olurlar. Ona görə də bu ölkələrdə KOB-ların inkişaf etdirilməsinə hökumətlər tərəfindən xüsusi əhəmiyyət verilir və dəyişən iqtisadi şəraitə uyğun olaraq hökumətlər iqtisadi siyasətlərini KOB-ların yeni şəraitdə inkişafına imkan verəcək formada təşkil etməyə çalışırlar.

10. Kiçik və orta sahibkarlıq subyektlərinin (KOS) bank kreditləşməsinin səmərəli şəkildə həyata keçirilməsi bu gün müxtəlif dünya ölkələrinin iqtisadiyyatları üçün qarşıda duran əsas vəzifələrdən biridir. Azad bazar prinsipləri ilə idarə olunan istənilən iqtisadi sistemin əsasını məhz KOS-ların inkişaf etdirilməsi və bunun vasitəsilə iqtisadi artımın təmin edilməsini təşkil edir.

Tədqiqat vasitəsi ilə əldə olunmuş nəticələr əsasında irəli sürülən təkliflər:

1. Kredit proseslərinin sadələşdirilməsi – elektron imza, onlayn müraciət portalları və avtomatlaşdırılmış skorinq sistemləri vasitəsilə;
2. Kreditin qiymətləndirilməsi proseslərinin təkmilləşdirilməsi – süni intellekt və maşın öyrənməsi modelləri əsasında alternativ məlumat mənbələrindən (kommunal ödənişlər, mobil operator məlumatları) istifadə edilməklə;
3. Kredit məhsullarının biznes ehtiyaclarına uyğunlaşdırılması – mikro, kiçik və orta bizneslərin həyat dövrü mərhələlərinə (startap, inkişaf, genişlənmə) uyğun olaraq;
4. Daha güclü və mükəmməl bank-sahibkar münasibətlərinin təşviqi – şəffaflıq, etimad və məlumat mübadiləsi mexanizmlərinin qurulması yolu ilə;
5. Normativ hüquqi çərçivənin sadələşdirilməsi və icra mexanizmlərinin təkmilləşdirilməsi – "Kredit büroları haqqında" Qanuna, "Daşınar əmlakın yüklülüyü haqqında" Qanuna, "Sahibkarlıq fəaliyyəti haqqında" Qanuna əlavələrin edilməsi və vergi orqanları ilə məlumat mübadiləsi mexanizmlərinin daxil edilməsi;
6. Alternativ maliyyə mexanizmlərinin inkişaf etdirilməsi yolu ilə maliyyə resurslarına çıxışın genişləndirilməsi (kredit zəmanət fondları, mikromaliyyə təşkilatları) və dövlət zəmanət mexanizmlərinin təkmilləşdirilməsi;
7. Güzəştli kredit imkanlarının artırılması və ixrac dəstək mexanizminin gücləndirilməsi;

8. İnzibati prosedurların şəffaflaşdırılması və bürokratiyanın azaldılması – kredit müraciətləri üçün tələb olunan sənədlərin minimuma endirilməsi və vahid elektron platforma yaradılması;

9. Sahibkarlar üçün təlim və konsaltinq xidmətlərinin genişləndirilməsi əsasında maliyyə savadlılığının artırılması;

10. MKOS-ların rəqəmsal transformasiya proseslərinə aktiv inteqrasiyasının təmin olunması – banklar və FinTex şirkətləri arasında rəqəmsal əməkdaşlıq platformalarının genişləndirilməsi;

11. KOB-ların maliyyələşdirilməsində yaşıl bankçılıq prinsiplərinin tətbiqi və ekoloji layihələrin güzəştli kreditləşdirilməsi.

12. Dövlət orqanları, MKOS-lar və banklar arasında səmərəli informasiya və əməkdaşlıq platformalarının yaradılması.

Dissertasiya işinin əsas müddəaları, əldə edilmiş nəticə və təkliflərlə bağlı aşağıdakı elmi məqalə və tezislər dərc edilmişdir:

1. Əzizova V.S. Kredit siyasəti və bankın fəaliyyətində onun rolu // Bakı: Qərbi Kaspi Universiteti, "Elmi xəbərlər" jurnalı, 2018, № 3. – s. 36–41.
2. Əzizova V.S. İnkişaf etmiş ölkələrin iqtisadiyyatında kiçik və orta biznesin parametrləri // Naxçıvan: "Naxçıvan" Universiteti, "Elmi əsərlər" jurnalı, 2018, № 4. – s. 71–75.
3. Əzizova V.S. Kiçik və orta biznesin kreditləşməsində risklərdən müdafiə istiqamətləri // – Bakı: Maliyyə Nazirliyi, "Maliyyə & Uçot" jurnalı, 2019, № 1. – s. 36–39.
4. Əzizova V.S. Kredit siyasətinin iqtisadi mahiyyəti // Bakı: Odlar Yurdu Universiteti, "Müasir təhsilin inkişafında beynəlmiləlləşmənin rolu" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, 2019. – s. 271–274.
5. Азизова В.С. Современное состояние банковского кредитования малого и среднего предпринимательства в Азербайджане // Економіка та держава: международный научно-практический журнал. – Киев, 2020. – № 2. – С. 137–140.
6. Əzizova V.S. Azərbaycanda kiçik və orta biznes sahəsində bankın kredit siyasətinin metodologiyası // Naxçıvan: "Naxçıvan" Universiteti, "Elmi əsərlər" jurnalı, 2020, № 3 (18).

– s. 44–49.
7. Əzizova V.S. Banklarda kiçik və orta biznesin kreditləşdirilməsinin prioritet istiqamətləri // Naxçıvan: Naxçıvan Dövlət Universiteti, “Azərbaycan Respublikası iqtisadiyyatının davamlı inkişafında innovasiyaların rolu” respublika elmi konfransının materialları, 2020. – s. 86–90.
8. Əzizova V.S. Heydər Əliyev və Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı // Bakı: Azərbaycan Universiteti, “Heydər Əliyev və Türk dünyası” beynəlxalq konfransının materialları, 2023. – s. 81–83.
9. Boyukkishi N.B., Aliyeva R.S., Guliyeva K.H., Mehdiyeva Z.J., Azizova V.S. Social factors of innovative economic development in the Republic of Azerbaijan // Revista Universidad y Sociedad. – Cienfuegos, 2024. – Vol. 16, № 4. – pp. 329–337.
10. Əzizova V.S. KOB-ların maliyyə resurslarına çıxış problemləri (Azərbaycan nümunəsində) // Bakı: Azərbaycan Universiteti, “İpək yolu” jurnalı, 2025, № 1. – s. 38–47.
11. Aliyeva R.S., Mehdiyeva Z.J., Mehdiyeva U.İ., Azizova V.S. The impact of the green economy to impact socio-economic well-being in the Republic of Azerbaijan // Revista Universidad y Sociedad. – Cienfuegos, 2025. – № 3. – pp. 1–10.
12. Azizova V.S. Comprehensive Analysis of the Banking Credit Policy: Strategic Framework and Optimization in the Case of Azerbaijan // “The Membership of Bulgaria in the European Union: Years Later”, materials of the international conference. – Sofia: University of National and World Economy (UNWE), Faculty of International Economics and Politics, Department of International Economic Relations and Business, October 2025. – pp. 485–491.



Dissertasiyanın müdafiəsi “16” dekabr 2026-cı il tarixində saat 14:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında (www.unec.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 14 noyabr 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 11.11.2026
Kağız formatı: 60x84 1/16.
Həcmi: 41456 işarə.
Tiraj: 100.

"AA – Poliqraf" istehsalat-kommersiya birliyində
hazır diapozitivlərdən istifadə olunmaqla çap edilmişdir.

Əlaqə üçün: capevi@internet.ru / (+99455) 201-2809